# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/11** **08 aprel 2020-ci il**

**Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair**

Bütün dünyada baş verən pandemiya şəraitində iqtisadi qeyri-müəyyənliyin yaranmasının maliyyə hesabatlarına dair auditlərin keyfiyyətinə və kəmiyyətinə mənfi təsirinin azaldılması və mövcud mürəkkəb şəraitdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müstəqil auditin dəstəyinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Müasir şəraitdə ölkədə müstəqil auditin qarşısında duran problemlərin müəyyənləşdirilməsi, bu problemlərin operativ və səmərəli həll edilməsi üzrə yeni dövrün çağırışlarına uyğun tövsiyələrin işlənib hazırlanması, Auditorlar Palatasının üzvlərinə əməli köməkliyin göstərilməsi, Palata üzvlərindən daxil olan təklif və tövsiyələrin təxirə salınmadan öyrənilməsi, həll edilməsi və zəruri hallarda müvafiq mərkəzi icra hakimiyyəti orqanları qarşısında qaldırılması, pandemiya dövründə qabaqcıl xarici təcrübənin Azərbaycan auditində tətbiqini təmin etmək məqsədilə aşağıdakı tərkibdə İşçi Qərargah yaradılsın:

**İşçi Qərargahın rəhbəri:**

| **Adı və soyadı** | **Vəzifəsi** | **Əlaqə nömrəsi** |
|---|---|---|
| Səbuhi Gülməmmədov | Palatanın icraçı direktoru | 050-320-67-89 |

**İşçi Qərargahın üzvləri:**

| **Adı və soyadı** | **Vəzifəsi** | **Əlaqə nömrəsi** |
|---|---|---|
| Fəqan Qarayev | Sədrin müşaviri | 055-727-74-77 |
| Qoşqar Əhmədov | Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi | 070-240-88-08 |
| Vəli Rəhimov | Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi | 050-324-54-32 |
| Vasif Cavadov | Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi | 050-612-04-73 |
| Nəcəf Talıbov | Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri | 050-330-55-22 |
| Zamin Hüseynov | Palatanın Şurası yanında Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitənin sədri | 050-326-74-48 |
| E-mail: audit-azerbaijan@audit.gov.az | | |

2. İşçi Qərargaha tapşırılsın ki, bir həftə müddətində Auditorlar Palatasının üzvlərinin təklif və tövsiyələrini nəzərə almaqla yeni şəraitdə auditin keyfiyyətinin və həcminin artırılması üzrə bu sərəncamın 1-ci bəndindən irəli gələn tələblərə uyğun tədbirlər planı hazırlayıb təqdim etsinlər.

3. Auditorlar Palatasının üzvlərinə tövsiyə edilsin ki, onları narahat edən problemləri və bu problemlərin həlli yolları barədə təkliflərini üç gün müddətində bu sərəncamla yaradılmış İşçi Qərargaha təqdim etsinlər.

4. İşçi Qərargaha tapşırılsın ki, hər gün saat 09:00-dan 20:00-dək Auditorlar Palatasının üzvləri ilə distant bağlantı qurulması işini təmin etsinlər.

5. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu sərəncamın mətninin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

6. Sədrin müşaviri F.Qarayevə, Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri F.Kamalovaya tapşırılsın ki, bu sərəncamın mətninin Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**